

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 196 (23.838)

*22 oktyabr 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. İlk “Ağıllı kənd” layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub.

Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq zamanı məlumat verilib ki, yeni hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq.

Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksi ilə tanışlıq zamanı bildirilib ki, 15 hektar ərazini əhatə edən hərbi hissə kompleksindəki qərargah binası və əsgər yataqxanasında şəxsi heyəti tərəfindən xidmətin yüksək səviyyədə aparılması üçün lazımi şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimində, “Azərenerji” ASC-nin 110/35/10 kV-luq “Zəngilan” yarımstansiyasının açılışında iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.



### *Ümummilli lider Heydər Əliyev siyasi xəttinin təntənəsi*

*Azərbaycan tarixinə adı qızıl hərflərlə Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə kimi yazılan cənab İlham Əliyevin seçicilər tərəfindən ilk dəfə Prezident seçilməsinin 18-ci ildönümündə və müstəqilliyimizin 30 illiyində bir daha ölkəmizin keçdiyi inkişaf yoluna nəzər yetirdikdə görürük ki, Odlar Yurdu əsrə bərabər inkişaf yolu keçib. Bir sıra inkişaf etmiş dövlətlərin 100 ildə əldə etdiyi nailiyyətləri, böyük uğurları Azərbaycan cəmi 30 il ərzində qazanıb.*

*Dövlətimizin əldə etdiyi ən böyük nailiyyətlərdən biri də blokada vəziyyətində saxlanılan Naxçıvanın yüksəlişinə nail olunmasıdır. Vaxtilə qaniçən düşmən Naxçıvanı blokadaya salmaqla əzmimizi, iradəmizi qırmaq istəyir, çətinliklər qarşısında qalan insanların qədim diyarı tərk edəcəyini düşünür, son nəticədə, torpağımızı işğal etmək məqsədi güdürdü. Düşmənin bu niyyətini ilk olaraq 1990-cı il iyulun 22-də Naxçıvana gələn ulu öndərimiz Heydər Əliyevin həyata keçirdiyi siyasət darmadağın etdi, Prezident cənab İlham Əliyevin reallaşdırdığı siyasət isə bu iyrənc xəyalları birdəfəlik tarixin arxivinə göndərdi. 18 ildə 15 dəfə muxtar respublikaya səfər edən dövlətimizin başçısı hər səfərində qədim və müasir diyarımızın inkişafını təcəssüm etdirən bir sıra mühüm sosial obyektlərin açılışını edib, Naxçıvanın daha da güclənməsi və inkişafı üçün müvafiq tapşırıq və tövsiyələrini verib. Həyata keçirilən möhtəşəm quruculuq və inkişaf siyasətinin nəticəsidir ki, bu gün muxtar respublika sakinləri Avropa ölkələrinin əhalisinin həyat şəraitindən heç də geri qalmayan bir şəraitdə yaşayırlar. Çünki bu gün bizim Vətənini, xalqını sevən, onun uğrunda fədakarlıqla çalışan, ən əsası isə insanlara doğru yolu, inkişaf istiqamətini dəqiqliklə göstərən rəhbərimiz var. Naxçıvanda əldə olunan bütün nailiyyətlər isə sözün həqiqi mənasında, Vətənə və xalqa xidmət nümunəsidir.*

## *İcmal*

# İnkişaf, tərəqqi və yüksəlişin dəyişməz ünvanına çevrilən




### *Maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi diqqət mərkəzindədir*

Yaşadığımız dövr bizdən daha mükəmməl təhsil almağı, elmi biliklərə və peşələrə dərindən yiyələnməyi tələb edir. Bu bir reallıqdır ki, ölkələrin gücü onların malik olduqları təhsilli və vətənpərvər gəncliklə, milli təhsil potensialı ilə ölçülür. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində əsasını qoyduğu təhsil strategiyası da ölkəmizdə milli köklərə bağlı, yeni təfəkkürlü və təhsilli gənc kadrların yetişdirilməsinə hesablanıb. Bu gün dahi şəxsiyyətin ideyaları Naxçıvan Muxtar Respublikasında da böyük yaradıcı gücə çevrilib. Elm və təhsil quruculuğunda müasir dövrün çağırışları nəzərə alınır, Prezident cənab İlham Əliyevin müəyyənləşdirdiyi “Maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi” prinsipi ardıcıl şəkildə icra olunur.

Təsadüfi deyil ki, müstəqillik illərində muxtar respublikada bütün təhsil pillələri üzrə yeni texnologiyalara əsaslanan tədris infrastrukturu yaradılıb, 200-dən çox məktəb binası tikilib və ya yenidən qurulub. Həmçinin ali, orta ixtisas və peşə məktəbləri üçün də yeni binalar istifadəyə verilib, universitet şəhərcikləri salınıb. Təhsil müəssisələrində internetə çıxışı olan 900-ə yaxın elektron lövhə, 7 mindən çox kompüter quraşdırılıb, zəngin fonda malik kitabxanalar, kabinə və laboratoriyalar istifadəyə verilib.

İnnovativ təlim metodlarının, xüsusilə də STEAM təhsilin tətbiqi və tədrisin təcrübə sahələrinə yaxınlaşdırılması insan kapitalının formalaşdırılması istiqamətində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olub. Təbii ki, bütün bunlar tədrisin səviyyəsinə də öz təsirini göstərib. Hər il ali məktəblərə qəbul imtahanlarında qazanılan uğurlu nəticələr bunu bir daha təsdiq edir. 2020-2021-ci tədris ilində də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunların 261-i imtahanlarda yüksək nəticə göstərərək 500-700 arası bal toplayıb. Bu faktlar sentyabrın 9-da muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüşdə diqqətə çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərənləri, eləcə də onların timsalında tələbə adı qazanmış bütün məzunları, onların valideynlərini və təhsil ictimaiyyətini təbrik edib, çıxışını ümummilli liderimiz Heydər Əliyevin gənclərə tövsiyəsi ilə tamamlayıb: ***“Zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz – yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız”.***

### *Bütün bölgələrimiz kimi Ordubad rayonu da başdan-başa abadlaşır*

Aparılan uğurlu siyasətin nəticəsidir ki, muxtar respublikada ulu öndər Heydər Əliyevin arzuları gerçəkləşərək diyarımız cənnətməkana dönüb. Həmin quruculuq işlərindən Ordubad rayonuna da pay düşüb. Cari ildə isə rayonun Dırnıs, Kələki, Unus, Pəzməri kəndlərində kompleks tikinti-quruculuq işləri aparılır, infrastruktur yenidən qurulur. Yollar yenidən çəkilir, körpülər salınır, 2 su elektrik stansiyası tikilir, rayonun qədim tarixə malik olan Ordubad Cümə məscidi əsaslı şəkildə bərpa edilir. Rayon stadionu yenidən qurulub.

Sentyabrın 15-i Aşağı Əndəmic kəndinin tarixində çox əlamətdar günə çevrilib. Bu yaşayış məntəqəsində məktəb, kənd və xidmət mərkəzləri tikilib, yollar əsaslı şəkildə təmir olunub, asfalt örtük verilib, kənddə müasirtipli ATS əhalinin istifadəsinə verilib.

Görülən bu işlərin davamı olaraq sentyabrın 15-də – Bilik Günündə Əndəmic kənd tam orta məktəbinin yeni binasının açılışı olub.

Ali Məclisin Sədri muxtar respublikanın bütün təhsil müəssisələrinin şagird və tələbələrini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri yeni tədris ilinin başlanması, Əndəmic kənd tam orta məktəbinin kollektivini isə həm də yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edib. Ali Məclisin Sədri deyib: ***“Bu gün təhsilin məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, bilikli, peşə sahibi, vətənpərvər, ulu öndərin ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Pedaqoji fikirdə də belə bir qayda var ki, şagirdlərin mənəvi dünyasını yalnız tədrisə, oxumağa sığışdırmaq olmaz; o, məktəbli olmaqla yanaşı, həm də çoxtərəfli maraqları, istəkləri və hədəfləri olan insana çevrilməlidir. Əsl müəllimlər şagirdlərinə hazır bilikləri verənlər yox, onların təfəkkürünün formalaşmasına kömək edənlərdir. Ona görə də təhsil müəssisələrinin rəhbərləri, pedaqoji kollektivlər yaradılanlardan səmərəli istifadə etməli, keçirilən dərslərdə tariximizə, dilimizə, adət və ənənələrimizə, milli dəyərlərimizə hörmət və qayğı aşılanmalı, gənclər vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar”.***

Sonra Ali Məclisin Sədri məktəbdə yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 252 şagird yerlik məktəbdə 14 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, 2 qarderob, idman zalı, anbar və təsərrüfat otağı yerləşir. Kitabxana fondunda 4981 kitab vardır. STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılıb, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təchiz edilib. Şagirdlərin hazırladıqları “Günəş izləmə sistemi”, “Xətt izləyən robot”, “Alqoritmlə işləyən işıqfor” layihələri Ali Məclisin Sədrinə təqdim edilib.

Ali Məclisin Sədri elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında “Ümummilli lider Heydər Əliyev və təhsil siyasəti” mövzusunda keçirilən interaktiv dərsi izləyib. Muxtar respublika rəhbəri birinci sinifdə təhsil alan şagirdlərin dərs prosesi ilə maraqlanıb. Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olub.

### *Kənd və xidmət mərkəzləri istifadəyə verilib, yol infrastrukturu gücləndirilib*

Həmin gün Ali Məclisin Sədri Aşağı Əndəmic kənd və xidmət mərkəzlərinin açılışını edib, binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanıb. Sonra sakinlərlə görüş olub.

Quruculuq tədbirləri çərçivəsində muxtar respublikada kənd yollarının yenidən qurulması da diqqətdə saxlanılır. Bunun ifadəsi kimi Ordubad şəhər – Aşağı Əndəmic kənd avtomobil yolu da yenidən qurulub. Sentyabrın 15-də Ali Məclisin Sədri yolda görülən işlərlə maraqlanıb.

Muxtar respublikada tarixi-memarlıq abidələrinin, məscidlərin, imamzadə və ziyarətgahların bərpa olunması da diqqətdə saxlanılır. Ordubad şəhərindəki qədim Cümə məscidində də bərpa işləri davam etdirilir. Sentyabrın 15-də Ali Məclisin Sədri Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpası ilə maraqlanıb. Ali Məclisin Sədri bərpa işlərinin davam etdirilməsi və ətrafdakı yolun genişləndirilməsi barədə tapşırıqlar verib. Həmin gün Ali Məclisin Sədri Ordubad şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə maraqlanıb. Muxtar respublika rəhbəri stadionda rayondaxili və rayonlararası yarışların keçirilməsi, qurulanların qorunması ilə bağlı tapşırıqlar verib.

*Ardı 2-ci səhifədə*

*Türkiyə-Azərbaycan əlaqələrində Naxçıvanın mühüm yeri var*

Qardaş ölkələr olan Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafının əsas amilləri ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələrdir. Bu gün ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında iqtisadi-ticarət, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və nəqliyyat sahələrində əlaqələr uğurla inkişaf etdirilir.

Sentyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Ali Məclisin Sədri nümayəndə heyətini salamlayıb, Naxçıvanın Türk dünyasının mərkəzində yerləşdiyini və mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

Azərbaycan-Türkiyə əlaqələrinin türk cümhuriyyətlərinin birliyinə xidmət etdiyini bildirən Ali Məclisin Sədri Türkiyə Böyük Millət Məclisində Azərbaycanla bağlı müzakirə olunan bütün məsələlərin yekdilliklə qəbul edilməsinə görə nümayəndə heyətinə təşəkkür edib.

Sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə milli müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Ali Məclisin Sədri nümayəndə heyətini Naxçıvanda görməkdən məmnunluğunu bildirib, ölkələrimiz arasındakı hərbi əməkdaşlıqdan bəhs edib. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində görülən işləri və həyata keçirilən hərbi təlimləri diqqətə çatdıran Ali Məclisin Sədri Naxçıvanda müdafiə təhlükəsizliyinin təmin olunduğunu bildirib, İkinci Qarabağ müharibəsində Türkiyə dövlətinin siyasi dəstəyini qeyd edib.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin və Mustafa Kamal Atatürkün əsasını qoyduğu Azərbaycan-Türkiyə əlaqələrinin ölkə prezidentləri tərəfindən uğurla davam etdirildiyini və strateji tərəfdaşlığın yüksək səviyyədə olduğunu bildirib, Qars müqaviləsi və Şuşa Bəyannaməsinin, bu mənada, əhəmiyyətini vurğulayıb. Görüşdə əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

*Naxçıvanda elmin inkişafı müstəqilliyin bəhrəsidir*

Ümummilli lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi görkəmli dövlət xadiminin ölkəmizdə elmin inkişafına verdiyi böyük dəyərin ifadəsidir. Dahi rəhbər bu barədə deyib: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq mən bu Sərəncamı vermişəm".***

Fəaliyyəti dövründə bölmədə, ümumilikdə, 17 beynəlxalq simpozium və konfrans keçirilib, mindən artıq kitab, albom, monoqrafiya, tezis və məqalə çap olunub, 37 patent alınıb, bölmə əməkdaşları 4-ü beynəlxalq olmaqla, 23 qrant layihəsinin qalibi olublar. Bölmənin strukturunda 6 elmi-tədqiqat müəssisəsi, eləcə də elmi kitabxana və nəşriyyat fəaliyyət göstərir. Bölmədə elmi işçilərdən 2-si akademik, 4-ü Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 4-ü elmlər doktoru, 51-i fəlsəfə doktoru, 57-si isə doktorant və dissertantdır. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində 4 ixtisas üzrə 2 Dissertasiya Şurası fəaliyyət göstərir. Bu illər ərzində muxtar respublikada 27 beynəlxalq və 7 yerli arxeoloji ekspedisiya təşkil edilib və fəaliyyət uğurlu olub.

Naxçıvan Bölməsinin fəaliyyəti dövründə icra edilən elmi-tədqiqat işlərinin 187 mühüm nəticəsi Azərbaycan Milli Elmlər Akademiyasının illik hesabatlarına daxil edilib. Bölmənin maddi-texniki bazası ilbəil möhkəmləndirilib, yüksək səviyyədə iş şəraiti yaradılıb. Bölmədə 5 elektron portal yaradılıb, elektron kitabxana formalaşıb.

Sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib. Ali Məclisin Sədri müşavirədə çıxış edərək vurğulayıb ki, muxtar respublikada elmin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması və müasir elmi-texniki infrastrukturun formalaşdırılması elmin inkişafında mühüm rol oynayıb.

Muxtar respublika rəhbəri deyib: ***"Ümummilli liderimiz Heydər Əliyev elmin hər bir ölkə üçün əhəmiyyətinə də diqqəti çəkərək deyirdi ki, "Hansı iqtisadiyyat olur-olsun, elm inkişaf etməlidir". Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində elmi nailiyyətlərin tətbiqi qarşıya mühüm vəzifələr qoyur"***, – deyən Ali Məclisin Sədri muxtar respublikada elmin inkişafı ilə bağlı müvafiq tapşırıqlar verib. Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatına verilən tapşırıqların icrasının diqqətdə saxlanılması və aidiyyəti üzrə məlumat verilməsi tapşırılıb.

*Respublikamızın tərəfdaşı olan ölkələrlə əlaqələr genişlənir*

Naxçıvanın sosial-iqtisadi, mədəniyyət, təhsil və digər sahələrdə böyük inkişaf yolu keçməsi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə dünyanın bir sıra dövlətləri arasında ölkələrimizin münasibətləri çərçivəsində əlaqələrin qurulmasına və möhkəmləndirilməsinə geniş imkanlar açıb. Bu gün, hətta coğrafi baxımdan uzaqda yerləşən bir sıra ölkələr də bu məsələyə xüsusi maraq göstərir, həmin dövlətlərin diplomatlarının muxtar respublikamıza səfərləri zamanı onlar elm, təhsil və iqtisadi-ticarət sahəsindəki əlaqələrin inkişafında maraqlı olduqlarını vurğulayırlar. Sentyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella ilə görüşüb. Muxtar respublika rəhbəri ölkələrimiz arasındakı əlaqələrdən bəhs edib, Ermənistanın işğalçılıq siyasəti nəticəsində diyarımızın blokada şəraitində yaşadığını bildirib. Muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni texnologiyaların tətbiqi və internet təminatı, eləcə də ərzaq və enerji təhlükəsizliyi sahəsində görülən işləri diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Argentina arasında əlaqələrin, xüsusilə də universitetlərarası əməkdaşlığın inkişafı üçün potensialın olduğunu vurğulayıb. Görüşdə qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, xatirə şəkli çəkdirilib.

*Vətən müharibəsi şəhidlərinin xatirəsinə dərin ehtiram*

27 sentyabr 2020-ci il ölkəmizin tarixində xüsusi yerə malikdir. Belə ki, həmin gün Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə ordumuz düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum əməliyyatlarına başladı. Müzəffər və rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində uğurlu əməliyyatlar keçirərək düşməni darmadağın etdi, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. Haqq-ədalətin bərpa olunmasında Naxçıvandan olan igid oğullar da qəhrəmancasına mübarizə apardı, öz vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirərək ərazi bütövlüyümüzün təmin olunmasında şücaət göstərdilər. Dövlətimizin başçısının dediyi kimi: ***"Naxçıvanlılar ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olanlara dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd edilir. Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Anım Günü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət edib, abidə önünə güllər qoyub, şəhidlərin xatirəsinə ehtiramını bildirib. Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. "Quran-Kərim"dən ayələr oxunub.

*Həyata keçirilən tədbirlər Naxçıvanın parlaq gələcəyinə təminat verir*

Bir millətin əsrlərboyu yaşatdığı adətinin, ənənəsinin, varlığının, milli şüurunun, birliyinin dəyişməz ünvanı olan Vətən təkcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyil. Vətən sonsuz sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Çünki elimiz, obamız bu torpaqlardadır. Əcdadlarımız bu torpaqlarda uyuyurlar. Onlar bu torpaqlarda yaşayıb, onu canları, qanları bahasına qoruyub, şəhidlik zirvəsinə ucalıb, amma həmişə Vətən sərhədlərinin toxunulmazlığını təmin ediblər. Sentyabrın 27-dən başlayaraq Azərbaycanın mərd oğulları Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarixi ənənəmizə sadiq qalaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdilər. Hərbi, siyasi və mənəvi cəhətdən tamamilə darmadağın edilmiş düşmən Ali Baş Komandanımızın şərtlərini qəbul edərək təslim oldu və bununla əlaqədar imzalanan bəyanata – kapitulyasiya sənədinə ölkəmiz və ümumilikdə, region üçün böyük önəm kəsb edən 9-cu maddə əlavə edildi. Bu maddənin bəyanata əlavə olunması ilə birlikdə Azərbaycan işğal faktını tamamilə ortadan qaldırmaqla yanaşı, digər bir mühüm məsələni – 30 ildir ki, blokada vəziyyətində saxlanılan Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi kimi çox önəmli və tarixi bir məsələni də həll etmiş oldu. Ölkəmizin əsas hissəsi ilə muxtar respublika arasında quru yolla əlaqələrin qurulması Naxçıvanın sürətli və davamlı inkişafını şərtləndirəcək, illərdir, mövcud olan bir sıra problemlərin kompleks şəkildə həllinə imkan verəcək, Türkiyənin Türk dünyası ilə əlaqələrinin inkişafı yeni mərhələyə qədəm qoyacaqdır. Qarsdan Naxçıvana dəmir yolu xətti layihəsinin reallaşdırılması ilə bağlı ciddi siyasi iradənin olması isə deməyə əsas verir ki, həmin layihə həyata keçirildiyi vaxt Türkiyənin, Avropa ölkələrinin Çin və digər Şərq ölkələri ilə yükdaşımalarının muxtar respublika ərazisindən həyata keçirilməsi mümkün olacaqdır. Beləliklə, Naxçıvan təkcə blokadadan xilas olmayacaq, həm də geostrateji baxımdan çox vacib, eyni zamanda yük daşımaları baxımından sərfəli olan beynəlxalq nəqliyyat dəhlizinə çevriləcək. Bütün bunlar Naxçıvanın parlaq gələcəyinə təminat verəcək. Gələcək nəsillər isə 30 illik blokada dövründə yazılan inkişaf, tərəqqi və yüksəliş dastanını maraqla oxuyacaq, abadlıq-quruculuq işlərini həyata keçirən, Naxçıvanı zirvələrə yüksəldən vətənpərvər insanların göstərdikləri fədakarlıqlar qarşısında baş əyəcəklər.

**Rauf KƏNGƏRLİ**

## Naxçıvan Dövlət Universitetində "Şərq qapısı" qəzetinin yubiley tədbiri keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən oktyabr ayının 21-də Naxçıvan Dövlət Universitetində mətbu orqanın yubiley tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə Naxçıvanda mətbuatın, o cümlədən "Şərq qapısı" qəzetinin tarixi inkişaf yolunu əks etdirən sərgiyə baxıblar.*

Tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Elbrus İsayev açaraq bildirib ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə imzalanan tarixi Sərəncam Naxçıvanın 100 illik tarixinin, mədəniyyətinin, elminin yetirdiyi jurnalistlər nəslinin əməyinə verilən böyük qiymətdir. Vurğulanıb ki, muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün yüzyaşlı maarifçilik salnaməsi olan "Şərq qapısı"nda təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar, o cümlədən Naxçıvan Dövlət Universitetinin tələbə jurnalistləri də çalışır. Rektor çıxışında Ali Məclis Sədrinin ali və orta ixtisas təhsili müəssisələrindəki müvafiq ixtisasların hamiliyə verilməsi ilə əlaqədar imzaladığı tarixi sərəncamların icrası ilə əlaqədar "Şərq qapısı" qəzeti ilə birgə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərdən də danışıb.

Diqqətə çatdırılıb ki, bu mətbuat orqanı muxtar respublikamızın sosial-iqtisadi inkişafında və çiçəklənməsində, vətəndaşların informasiyaya olan tələbatının dolğun səviyyədə ödənilməsində, milli dəyərlərin təbliğində, siyasi təfəkkürün formalaşmasında, Naxçıvanın elm, maarif ocağı kimi tanıdılmasında fəal iştirak edərək özünə böyük oxucu kütləsi qazanıb.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxışında vurğulayıb ki, bugünkü müstəqil mətbuatımızın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Baş redaktor 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, 100 yaşlı Naxçıvan mətbuatı, eləcə də Naxçıvan Dövlət Universiteti muxtar respublikanın ictimai-siyasi həyatında, dövlətçilik tarixində, gənc vətənpərvər ziyalı nəslin formalaşmasında müstəsna rol oynayırlar.

Tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən "Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur.

Diqqətə çatdırılıb ki, qəzet keçmişdə olduğu kimi, bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir. "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin xüsusi diqqət və qayğısı ilə mətbuatın inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Rövşən Hüseynov Naxçıvan Dövlət Universiteti əməkdaşlarının, eləcə də Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası müəllim və tələbələrinin mətbuatda, xüsusilə də "Şərq qapısı"nda müntəzəm olaraq mövzu və ideya etibarilə aktuallıq kəsb edən məqalələrlə çıxış etmələrindən, fəal vətəndaşlıq və ziyalılıq mövqeyi bildirmələrindən də bəhs etmişdir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva, Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Səadət Əliyeva və "Şərq qapısı" qəzetinin əməkdaşı Güntac Şahməmmədli "Şərq qapısı" qəzetinin milli mətbuat tariximizdəki özünəməxsus yerindən ətraflı söhbət açıblar.

Tədbirdə universitetin Media Mərkəzinin fəaliyyətini əks etdirən videoçarx, "Şərq qapısı" qəzetinin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən slayd nümayiş olunub.

Sonda "Şərq qapısı" qəzetinin baş redaktoru Naxçıvan Dövlət Universitetinin fəxri fərmanı, eləcə də qəzetin redaksiya heyəti "Şərq qapısı" qəzetinin 100 illik yubileyi və muxtar respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatındakı səmərəli fəaliyyəti münasibətilə universitet rəhbərliyi tərəfindən təşəkkürnamə ilə təltif olunmuşlar. Qəzetlə fəal əməkdaşlıq edən universitet əməkdaşları və tələbələrinə "Şərq qapısı" qəzetinin fəxri fərmanları və hədiyyələr təqdim olunub.

Tədbir "Nəqşicahan" instrumental ansamblının konsert proqramı ilə başa çatıb.

**Məcid RƏŞADƏTOĞLU**

# Media-tur iştirakçıları: “Naxçıvan YUNESKO-nun ilkin siyahısına salınacaq tarixi abidələrlə, turizm potensialı ilə zəngin bir diyardır”



*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi muxtar respublikamıza media-tur təşkil edib. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu əməkdaşları və media nümayəndələrinin iştirakı ilə dünən başlayan turda iştirakçılar ilk olaraq ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Bundan sonra Heydər Əliyev Muzeyi, Dövlət Bayrağı Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın türbəsi və Açıq Səma Altında Muzey Kompleksində olublar. Dünya memarlığının nadir nümunəsi və Naxçıvan dövlətçilik tarixinin nişanəsi olan, hələ XII əsrdə türk qadınına verilən dəyərin rəmzi sayılan Möminə Xatın məqbərəsi media-tur iştirakçılarının böyük marağına səbəb olub, qarşısında xatirə şəkli çəkdirilib. Sonra Əlincəqala, Xanəgah Memarlıq Kompleksi və Haçadağın kənardan görüntüsü ilə tanış olmaq üçün yola düşüblər.*

Səfərin məqsədilə əlaqədar ***Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev*** məlumat



verərək bildirdi ki, bu, Naxçıvana ilk səfəri deyil. Dövlət Turizm Agentliyi olaraq mütəmadi şəkildə burada olur və təcrübə mübadiləsi aparırıq. Elə Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin də fəal iştirakı ilə təşkil edilən növbəti media-tur da bu məramа xidmət edir. Diyarımızın böyük turizm potensialı var, bizim də əsas məqsədimiz o potensialı nəinki bütün Azərbaycana, dünyaya tanıtmaqdır. Bu gün buraya ölkədə fəaliyyət göstərən müxtəlif media nümayəndələri də gəlib. Onların əhəmiyyətli coğrafi imkanlara, turizm potensialına malik bir diyarı kifayət qədər tanıyacaqlarına və tanıdacaqlarına əminik. Burada müxtəlif istiqamətlər var. Bu gün Dövlət Turizm Agentliyi təkcə turizm potensialını deyil, həmçinin mədəni irsi də araşdırır. Buna görə də bizimlə birgə mütəxəssislər də burada iştirak edirlər. Naxçıvanda YUNESKO-nun ilkin siyahısına düşəcək abidələr var. Mən istəyərdim ki, bununla bağlı da bizim əməkdaşlar fəaliyyət göstərsinlər və gələcəkdə həmin siyahıya salınması üçün Möminə xatın türbəsi və Ordubad qoruğu haqqında araşdırmalar aparılsın.

Onu da qeyd edim ki, pandemiya turizm sahəsindən də yan keçməyib. Lakin Naxçıvan istənilən ölkədən gələcək turistləri qarşılamağa hazırdır. Çünki artıq qeyd etdiyim kimi, buraya birinci səfərim deyil. Hər dəfə gələndə ötən dəfə gəldiyimdən də yaxşı inkişaf etmiş şəhər, təmiz küçələr, infrastruktur diqqətimi çəkir. Turun yüksək səviyyədə təşkilinə, göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

***Florian Zenqstşmid – Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru:*** – Naxçıvana



Azərbaycan Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun əsas komanda heyətini gətirmişik ki, onlar turizm ekspertləri kimi Naxçıvanı görsün və buradakı turizm xidmətlərini təcrübə edib daha yaxından tanış olsunlar. Bununla yanaşı, Naxçıvanda olan həmkarlarımızla birlikdə müzakirə edək ki, Naxçıvanın turizm potensialını daha yüksək formada necə təbliğ edə bilərik. Həqiqətən də, Naxçıvan turizm potensialında mühüm əhəmiyyəti ilə seçilən yerlərdən biridir. Burada yaradılmış infrastruktur imkan verir ki, muxtar respublikaya üz tutan turistlərin sayı daha da çox olsun. Qeyd edim ki, qısa bir zamanda burada olmağıma baxmayaraq, hiss etdim ki, bu diyarın bənzərini heç yerdə görməmişəm. Naxçıvanın yaşıllığı, təmizliyi, abadlığı və səliqə-sahmanı insanı məftun edir. Mənə təsir edən əsas nüanslardan biri də Naxçıvanın landşaftı və əlbəttə ki, bu dəqiqə ən çox ehtiyacımız olan təmiz havası oldu.

***Səkinə Əsgərova – Azərbaycan Turizm Bürosunun Sənaye Birlikləri üzrə meneceri:*** – Xəritəyə



baxdıqda Azərbaycanı Şərqdən Qərbə doğru qanad çalan məğrur qartal kimi görürük. Qədim İpək Yolunun incisi olan, ölkəmizin bir qanadı da qədim Kiçik Qafqaz dağlarının Zəngəzur, Dərələyəz silsiləsi tərəfindən mühafizə edilən cahanın nəqşi Naxçıvandır. Sahib olduğu təkrarsız geoloji və təbii quruluş onun həm vizual landşaftının, həm də təklif etdiyi müxtəlif sahələr üzrə turizm xidmətlərinin unikallığına zəmin yaradır. İlk dəfə regionda qadının şərəfinə abidə ucaldan Naxçıvan, yaşı mini ötən bir çox abidələrin yurdudur. Nuh yurdudur Naxçıvan, necə deyərlər,



ölkəmizin ən isti və ən soyuq nöqtələr ilə sahib olduğu kontinental iqlimin yaratdığı biomüxtəliflik nümunələri və kulinariya ənənələri ilə istər yerli, istərsə də əcnəbi turistlərin diqqətini çəkməyi bacarıb. Sual yarananda ki, Azərbaycan ərazisində neçə ədəd min yaşı olan abidə var? Təbii ki, qədim tarixi abidələrin zənginliyinə görə Naxçıvan bu siyahıda liderdir. Əsas məsələ isə həmin o mindən çox yaşı olan turizm obyektlərinin necə qorunub saxlanılmasıdır. Buraya gələn turistlərin diqqətini çəkən məqam isə qədim abidələrin əvvəlki kimi restavrasiya edilməsidir. Həmçinin beynəlxalq forumlarda, ümumdünya turizm təşkilatının görüşlərində insanların marağına səbəb olan məhz bu sadaladığım məqamlardır. Ona görə də bütün bu məsələlərin hamısı əvəzsiz turizm təcrübəsinin yaşadılmasına gətirib çıxardır. Son olaraq bunu da vurğulayım ki, bu gün bizim üçün yaradılan şərait və tədbirin bu cür mükəmməl təşkili media nümayəndələrinin və mənim həmkarlarımın da üreyində oldu, bizlərə əsl mənəvi zövq bəxş etdi.

***Azərbaycan Televiziyasının müxbiri Leyla Abbasova*** da təəssüratlarını bizimlə bölüşdü: – Naxçıvana ilk səfərim deyil. Bu dəfə gəlişimizdə məqsəd qədim tarixə malik olan bu yurdun turizm potensialını



işıqlandırmaqdır. Burada diqqətimi çəkən Naxçıvan mətbəxinin nümunələri oldu, onlar öz zənginliyi və ləziz dadı ilə yaddaqalandır. Ümumiyyətlə, hər dəfə bura gələndə mütləq bu diyar insanı təəccübləndirir. Hazırda dayandığımız Əlincəqalaya qalxmaq o qədər asan olmasa da, hər bir tur iştirakçısı alınmaz qala kimi tarixə düşən bu yerləri görmək məqsədilə dəniz səviyyəsindən 1700 metr yüksəklikdə olan bu qalaya qalxmağa can atdı. Buradan aldığımız məlumatları, eləcə də buranın görüntüsünü öz tamaşaçılarıma çatdırmaq mənim üçün çox qürurverici bir vəzifədir. Bu tur ona görə əhəmiyyətlidir ki, aramızda bu yerlərdə ilk dəfə olanlar var ki, onlar həm özləri öyrənir, tanış olur, həm də milyonlarla izləyicini bu yerlərə virtual səyahət etdirmiş olurlar. Əminəm ki, geri qayıtdıqdan sonra danışmaqdan doymayacağım ünvanlar içərisində Əlincəqalanın xüsusi yeri olacaq.

Növbəti müsahibimiz “***Real” TV- nin müxbiri Vüsal Süleymanov***dur: – Bu, Naxçıvana tam fərqli bir səfərimizdir. Çünki əvvəl gəldiyimdə, şəhər mərkəzi və Əshabi-Kəhf ziyarətgahından başqa bir yerdə olmamışdım. Bu gün isə tamamilə fərqli bir məkandan – kilometrlərlə yüksəklikdən öz tamaşaçılarımıza məlumat aparacağam. Onu deyim ki, Əlincə qalası



Azərbaycan xalqının, o cümlədən naxçıvanlıların mərdliyinin, yenilməzliyinin simvoludur. Torpaqlarımızın işğaldan azad olunmasının verdiyi qürur hissi ilə bu gün bu yerlərdən dünyaya yayımlayacağımız materiallar bir növ o deməkdir ki, bəli, biz Əmir Teymur kimi bir fatehlə mübarizə aparıb təslim olmayan xalqın varisləriyik. Bir qarış belə, torpağımızın yağı düşmən tapdağında qalmasına son qoymalı idik və qoyduq da. Mən hər yerdə həmişə demişəm, yenə də fikrimdə qalıram ki, Naxçıvan təmiz, gözəl, stabil şəhər təəssüratı doğurur insanda. Burada olan ictimai nəzarət məni heyran edir. Mən istərdim ki, insanlar arasında ictimai nəzarət bütün bölgələrimizdə bu səviyyədə olsun. Naxçıvan, həmçinin özünün qədimiliyini qoruyaraq müasirləşən mükəmməl şəhərdir. Mən çalışacağam ki, bu yerlərə, bəlkə də, gəlməyi ağlından keçirməyən insanları Naxçıvana mütləq dəvət edəm. İnanıram ki, bizim xalqımız pandemiyanın da öhdəsindən gələcək və biz gələcəkdə hansısa xarici ölkələrdə deyil, öz turizm imkanlarının mükəmməlliyi ilə seçilən Naxçıvan kimi bölgələrimizdə istirahət edəcəyik.

Növbəti müsahibimiz ***bloger Kübra Məhərrəmova***dır. O deyir: –Naxçıvan haqqında çox eşitməyimə baxmayaraq, ilk dəfədir, buradayam. Tərif olunandan



daha möhtəşəmdir burada hər şey. Elə Naxçıvan Beynəlxalq Hava Limanından çıxan kimi ilk diqqətimi çəkən havanın təmizliyi və taksilərin bir qaydada düzülüb səliqə ilə insanlara xidmət etməsi oldu. Bu şəhərdə hər yer tər-təmizdir. Mən bir çox şəhərlərdə olmuşam. Bir çox şəhərlərdə müşahidə etmişəm ki, küçələr nə qədər təmizlənsə də insanlar çirkləndirir. Ancaq burada insanlar özləri qurulub yaradılanlara, təmizliyə keşik çəkir.

Düşünürəm ki, bu dünyada ən böyük kapital insan kapitalıdır, gənclərdir. Burada gənclərə göstərilən diqqət və



qayğı haqqında mütəmadi eşidirdik. Bu gün isə özümüz bunun şahidi oluruq. Biz bu gün Heydər Əliyev Muzeyində olduq. Buradakı eksponatlarla tanışlıq çox böyük marağa səbəb oldu. Çünki ümummilli liderimizin həyat və yaradıcılığına dair heç harda görmədiyimiz faktları burada öyrəndik. İndi isə Əlincəqaladayıq. Bura haqqında bir tək onu demək istəyirəm ki, damarında azərbaycanlı qanı axan hər bir kəs ömründə bircə dəfə də olsa, bu qalanı mütləq görməlidir. Başımızın üstündə üçrəngli bayrağımız dalğalanır. Bu da qalib xalqın media nümayəndəsi kimi mənə qürur verir. Bu gün turistlər üçün bu şəraiti yaradan insanlara da əhsən deyirəm. Bu qədər ağır bir şəraitdə hər pilləni diqqətlə qurub düzəldən, infrastrukturu yaradan insanlar, həqiqətən, alqışa layiqdirlər.

Ümumiyyətlə, Naxçıvan mərd insanların vətənidir. Bura düşmənə əsl gözdağıdır. Uzun illər blokadada yaşamasına baxmayaraq, həmişə mərd, qalib bir yer olaraq yaşayıb. 44 günlük Vətən savaşında da naxçıvanlı igidlərin necə dastan yazdığının şahidi olduq. Mən bu torpağa, bu elə hər zaman qalib olmasını arzu edirəm.

*Media-tur iştirakçıları Biznes Mərkəzi ilə də tanış olublar. Qeyd edək ki, səfər davam edir.*

**Telli MƏMMƏDOVA**
**Aytac CƏFƏRLİ**

## STEAM Tədris Mərkəzindən “TinkerCad proqramı ilə 3D modelləşmə” mövzusunda ilk interaktiv dərs keçilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” 2021-ci il 7 iyun tarixli Sərəncamının icrası ilə bağlı muxtar respublikanın 50-dən çox təhsil müəssisəsində STEAM kabinələri yaradılmış, STEAM təhsil metoduna aid dərsliklər hazırlanmış, 200-dən çox müəllimə STEAM metodologiyasına aid təlimlər keçirilmişdir.*

Bu istiqamətdə görülən işlərin davamı olaraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən oktyabrın 21-də muxtar respublikanın ümumtəhsil məktəblərinin VI və VII siniflərində təhsil alan şagirdlər üçün STEAM təhsili ilə bağlı interaktiv dərs təşkil olunub. Şagirdlərdə innovativ təhsil metoduna dair biliklərin inkişaf etdirilməsi məqsədilə keçilən interaktiv dərs Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə yaradılan STEAM Tədris Mərkəzində keçirilib.






Təhsil Nazirliyinin təlimçisi Ceyran Məmmədova tərəfindən keçilən interaktiv dərsdə “TinkerCad” proqramı vasitəsilə prototip qurğuların layihələrinin hazırlanması, proqramdan istifadədə mühəndislik və dizaynerlik bacarıqlarının rolu barədə məlumat verilib. “TinkerCad” proqramı vasitəsilə modellərin hazırlanması, proqramlaşdırma və simulyasiya vasitəsilə elektron qurğular üzərində işləməyin yolları izah edilib. 3D obyektləri yaratmaq üçün kod sətirlərinin tətbiqi yolları şagirdlərə praktik öyrədilib.

İnteraktiv dərs muxtar respublikanın STEAM təhsil metodu tətbiq edilən 50-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



***Azərbaycan xalqının milli-mənəvi dünyasını, gözəllik duyumunu, dərin fitri istedadını, dünyaya fəlsəfi baxışlarını özünəməxsus sirli naxışlarda yaşadan Azərbaycan xalça sənətinin çox qədim tarixi vardır. Bu sənətin sirlərini nəsildən-nəslə öyrədərək və ötürərək bu günümüzədək gəlib çatmasında xalça ustalarının əvəzsiz xidmətləri danılmazdır. Belə ustalardan biri də Kamil Əliyevdir.***

*Kamil Əliyev – 100*

# Azərbaycan xalça sənətinin kamillik zirvəsində

Azərbaycan xalçaçılıq sənətinin rəngləri və ilmələr sehrkarı, rəssam, böyük vətənpərvər insan Kamil Müseyib oğlu Əliyev 1921-ci ildə oktyabr ayının 22-də Qərbi Azərbaycanda, İrəvan xanlığının mərkəzi olan İrəvan şəhərində dünyaya göz açmışdı.

Bu illər ermənilərin azərbaycanlılara qarşı amansızcasına yürütdükləri qanlı soyqırımı siyasətinin qurbanı olan millətimiz baş verən ağrılı-acılı hadisələr ucbatından öz dədə-baba yurdlarını tərk etmək məcburiyyətində qalmışdılar. Bu köçkün toplumlardan biri də Əliyevlər ailəsi idi. Onlar 1922-ci ildə Türkiyədə sığınacaq tapırlar, az sonra öz ailəsi ilə birlikdə yenidən İrəvana qayıdan Müseyib kişi ermənilər tərəfindən davam edən amansızlıqları görüb Bakıya köçür və ailəsi ilə Çəmbərəkənddə yaşamağa başlayır.

Elə bu zamandan etibarən İrəvan məfhumu 8 yaşlı Kamilin xəyalında və gələcəkdə toxuyacağı naxışlarda nağıl kimi yaşayır, həyatda isə onun gələcək taleyini müəyyən edən yeni duyğular baş qaldırır.





Nənəsi Gülsüm xanım və anası Xanımın toxuduğu xalçaların ecazkar təsir qüvvəsi Kamilin iç dünyasına hopur və onu ovsunlayır. Zümzüməsinin müşayiəti ilə gecə lampa işığında xalı-xalça toxuyan nənəsinin əllərinə baxmaq, əriş üzərində iti hərəkətlərlə düyün salan anasını izləmək Kamilin ən sevimli vərdişlərindən idi.

Atasını erkən itirən Kamilin ailəsinin yeganə qazanc mənbəyi onların evində toxunan xalçalardan gələn gəlir idi. Lakin bu gəlirdən daha dəyərlisi Kamilin gələcəkdə yiyələnəcəyi sənətə qazandığı sevgi oldu. Kamil Əliyev güclü insan idi. Onda istədiyinə çatmaq üçün bütün maneələri dəf etmək bacarığı, bütün çətinliklərə qatlaşmaq, ən ağır əməyi öz üzərinə götürüb yüksək səviyyədə həyata keçirmək istedadı var idi. Kamil Əliyevin böyük bacısı Mənzər gənc yaşlarından rəssamlığa və xalça sənətinə meyil etmişdi. Bu meyil onu Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin Dekorativ-tətbiqi sənət şöbəsinə daxil olmasına gətirib çıxardı. Sonralar tanınmış xalça rəssamı olacaq bacısı Mənzərin püxtələşməsinə təsir edən müsbət cəhətlərdən biri də məktəbdə onun Lətif Kərimovdan dərs alması olmuşdu.

Bacısından örnək götürüb 1936-cı ildə Bakı Rəssamlıq Məktəbinin Dekorasiya şöbəsinə daxil olan Kamil üçillik təhsilini başa vurduqdan sonra "Azərxalça" Birliyinin eksperimental laboratoriyasında köçürücü rəssam kimi çalışmağa başlayır.

Burada o, Qəzənfər Xalıqov, Əmir Hacıyev, Lətif Kərimov, Kazım Kazımzadə, İsmayıl Axundov kimi böyük sənətkarlardan təcrübə qazanır və öz üzərində işləyir.

Kamil Əliyev 1939-cu ildə Nizami Gəncəvinin 800 illik yubileyinə həsr olunan süjetli xalçaların toxunmasında çox fəal iştirak edir.

Ömrünü xalçalara, naxışlara həsr edən Kamilə dövlət tərəfindən etimad göstərilərək 1962-ci ildə Yerli Sənaye Nazirliyində İstehsalat şöbəsinə rəis, 1963-1971-ci illər arasında isə Bakı Zərgərlik Məmulatları fabrikinə direktor və incəsənətlə bağlı digər mühüm obyektlərə rəhbərlik həvalə edilir. Bütün qazandığı nailiyyətlərə baxmayaraq, Kamil Əliyev xalça sənətinə olan eşqinə sadiq qalır və bu sənətlə bağladığı əhdü-peymanı pozmur.

Kamil Əliyevin toxuduğu xalçalar üzərində mənəvi aləm, qədim tariximiz, zərif düzümlü bəzək elementləri, kalliqrafik yazılar, sonsuz və dərin rəng çalarları böyük ustalıqla təcəssüm edilib.

Təbiətən hövsələsiz olan bu insan çox böyük təmkinlə, müdrikcəsinə yaradacağı xalçanın hər kiçik detallarını düşünür, onların nazını çəkirdi. Kamil Əliyevin ilk toxuduğu xalça 1958-ci ildə nəinki Azərbaycan, bütün Şərq poeziyasının tanınmış dühası Məhəmməd Füzulinin 400 illik yubileyinə həsr edilir. Xalçımızın tarixi yaddaşından gələn rənglərin, naxışların, mifik obrazların vəhdəti, gücü-qüdrəti, kompozisiyanın bədiiliyi, estetik-fəlsəfi qayəsi, monumental ruhu xalçanı və xalçaçı rəssamı sənət zirvəsinə yüksəltmişdir.





Rəssam sehrli ornamentlərin öz təfəkkürünün ona diktə etdiyi yeni formalarını yaratmış, rəngləri təcrübədən keçirmiş, özünü dekorativ sənətin bu və ya digər sahələrində sınağa çəkmişdir.





Kamil Əliyev Azərbaycan xalçasını, bu sənətin inkişafda olan müasir vəziyyətini dünyanın hər yerində tanıtdı. O, Azərbaycan xalçasında tarixi yaratdı, dühalarımızı, şəxsiyyətlərimizi əbədiləşdirdi. İrqindən, coğrafi məkanlarından asılı olmayaraq, dünya miqyasında tanınmış simaları xalçalarına qəhrəman seçdi.

Bu növ ciddi çeşniləri işlədikcə bir qayda olaraq Kamil Əliyev məğrur, mübariz, humanist simaların ilmələrlə tam ifadəsi üçün bütün bacarığını sərf edirdi. Hər bir portretin özünə xas kompozisiyasını yaradırdı. Yaratdığı bütün xalçalarda fərqli, bir-birinə bənzəməyən təqdimat hökm sürürdü.

1973-cü ildə böyük ustad şair İmadəddin Nəsiminin 600 illik yubileyi münasibətilə yaratdığı portret xalçası nadir sənət abidəsi kimi fantastik zirvəyə ucalmışdır. Bu xalça üzərində 700 mindən artıq ilmə vurulmuşdur.

1978-ci ildə "Nizami Gəncəvi" xalçasının bədii tərtibatı üzərində işləyərkən Kamil Əliyev qədim "Quran" əlyazması kitabında rast gəldiyi naxış elementlərindən istifadə edir. Rəssam öz aləmində dahi Nizamini peyğəmbərlik səviyyəsinə ucaldır.

Daha sonralar müxtəlif illərdə toxunmuş "M.F.Axundov" (1978), " Aleksandr Serqeyeviç Puşkin" (1987), " Şota Rustaveli" (1981), "İndira Qandi" (1985), "Rabindranat Taqor" (1987) kimi xalçaların hər birində Kamil Əliyev tərəfindən istifadə edilən fərqli medalyon məmulat üzərində təqdim edilən şəxsin dünyaya baxışları və fəlsəfəsi ilə uzlaşır.

Bu süjetlər qalereyasını zənginləşdirən, yeni ruh gətirən şəxsiyyətlər içərisində Azərbaycan xalqı üçün önəmli simalar və dünya miqyasında tanınan ictimai xadimlər və siyasətçilərdən Heydər Əliyev (1980, 1998, 2004), İlham Əliyev (1997), türk lideri Mustafa Kamal Atatürk (1991,1996), Süleyman Dəmirəl (1994) və digər tanınmış şəxsiyyətlər olmuşlar.

Kamil Əliyevin həyatının hər anı, hər dəqiqəsi qiymətli və məhsuldar olmuşdur. Bu fitri istedad sahibinin ürəyində daşıdığı ən böyük arzularından biri gənclik illərindən tanıdığı, hər zaman ehtiram göstərdiyi, xalqımızın iftixarı, qürur mənbəyi olan ulu öndərimizin portretini xalça üzərində yaratmaq idi.

1980-2004-cü illər arasında rəssam "Ümummilli liderimiz Heydər Əliyev" xalçasının onlarla variantda layihəsini hazırlayır və bu layihələrdən üçünü ilmələr üzərinə köçürür. Birincisi 1980-ci ildə toxunan xalça olur. Bu xalça üzərində Kamil Əliyev müdrik dövlət başçısının, böyük siyasi xadimin portretini yüksək zövq və sənətkarlıqla yaratmışdır.

İkinci xalçada müəllif generalın ciddi baxışlarını, mühüm mövqe sahibi olduğunu ilmələrin köməyilə açıb göstərmişdir. Bu möhtəşəm sənət əsəri əvvəllər Naxçıvan Dövlət Xalça Muzeyində mühafizə olunub, hazırda isə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin ekspozisiyasında nümayiş etdirilməkdədir.

Təxminən, altı il sonra Kamil Əliyev yenə də öz qəlbində ulu öndər Heydər Əliyev şəxsiyyətinin xalçada canlandırılmasına ehtiyac olduğunu duyur. Dahi rəhbərə həsr etdiyi üçüncü xalçasını hazırlayır. Bu xalçanı, həqiqətən də, Kamil Əliyevin şah əsəri saymaq olar. Xalçanın dəbdəbəli tərtibatı qəhrəmanın statusuna çox uyğundur.

Azərbaycan incəsənətində göstərdiyi xidmətlərə görə Kamil Əliyev ilk dəfə 1960-cı ildə fəxri fərmana layiq görülür, respublikanın "Tətbiqi incəsənət ustası" fəxri adını qazanıb. 1967-ci ildə "Əməkdar rəssam", 1982-ci ildə "Xalq rəssamı" fəxri adları ilə təltif edilib. 1998-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən rəssama dekorativ və tətbiqi sənət üzrə professor elmi adı verilib, 1999-cu ildə isə ümummilli lider tərəfindən "İstiqlal" ordeninə layiq görülüb.

Kamil Əliyevin özünün zövqlə kompozisiyasını tərtib edib, xalça üzərində böyük dəqiqliklə çalışdığı ən sevimli nümunə onun anasına ithaf etdiyi və 2003-cü ildə toxuduğu "Mənim anam" xalçasıdır. Xatirələrinin hamısında anasını dünyanın ən gözəl xanımı olduğunu deyən rəssam, sanki toxuduğu bu əsər vasitəsilə onu nəzmə çəkmişdir. Xalçanın toxunduğu zaman rəssam böyük həyəcan keçirir, tələsir və əlini obrazın örpəkli saçları, nurlu çöhrəsi üzərində gəzdirərək. "Bircə anamın xalçasının toxunub başa çatdığını görsəydim", – deyərək xəyallara dalarmış.

Kamil Əliyevin xalça sənətinə gətirdiyi bir sıra yeniliklər olmuşdur. Onlardan biri bədii tərtibat baxımından portret üslubu ilə naxışı bir məkanda eyni səviyyədə yüksəltməkdir. Belə ki, o özündən əvvəl portret toxuyan xalçaçı rəssamlardan fərqlənir, müəllifin xalçalarında saya yerlik, hədd anlayışı yoxdur. Onun xalçalarında obrazla naxış bir-birinə qovuşub, biri digərini tamamlayır, onlar dağ çeşməsi kimi fərqli məcralardan olub, eyni mənbəyə tökülürlər.

Kamil Əliyevin sənəti xəlqidir. O, heç zaman xalq yaradıcılığından kənarda qalmamışdır. Məhz bu amalla rəssam yaradıcılığında klassik kompozisiyalara daha çox müraciət edirdi.

Ornamental xalçalar sırasında da Kamil Əliyev bir qisim xalçalar da yaratmışdır ki, onlar Azərbaycan xalçalarının bütün məktəbləri üzrə klassik çeşniləri əsasında toxunublar. Bunlardan "Qımıl", "Qollu Çiçi", "Xilə buta", "Suraxanı", "Mərəzə" və digərlərini göstərmək olar.

Xalq rəssamı, professor Kamil Əliyev Azərbaycan Respublikasının, onun milli-mədəni sərvətlərinin dünyada tanınmasında, sevilməsində əvəzsiz rol oynamışdır. Onun yaratdığı xalçalar respublika və dünya muzeylərinin, qalereyalarının, özəl kolleksiyalarının incilərindən sayılır. Onlar Azərbaycanımızın mədəniyyət salnaməsinin sənədli və canlı səhifələrinə çevrilmişdir.

Kamil Əliyevin yaratdığı hər bir əsər insanı özünün sehrinə salaraq valeh edir. İllər ötəcək, əsrlər keçəcək, nəsillər bir-birini əvəz edəcək, lakin onun sənətinin zirvəsini, bəlkə də, fəth etmək mümkün olmayacaq.

*Bu gəlimli-gedimli, son ucu ölümlü dünyada xalqımızın minilliklər öncə yaratdığı və bu gün yüksələrək inkişaf edən xalça sənəti Kamil Əliyev kimi sənətkarlarımızın yaradıcılığı sayəsində daim yaşayacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2021-ci il 12 oktyabr tarixli Sərəncamı, bu Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 16 oktyabr tarixli Sərəncamla təsdiq etdiyi "Tədbirlər Planı"na əsasən yubileyin dövlət səviyyəsində qeyd olunması böyük sənətkarın irsinə, eləcə də milli dəyərlərimizə verilən yüksək qiymətdir, Kamil Əliyev sənətinin həmişəyaşarlığının təsdiqidir.*

**Ülviyyə MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru***

## Növbəti əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası Şərur rayonunda keçirilib. Qeyd edək ki, sözügedən tədbirə işaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də dəvət olunub. Hərbi xidmətdən yeni tərxis olunmuş gənclərə onların vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin artırılması və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib.

Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 52 müəssisədən 253 boş iş yeri təqdim edilib. Nəticədə, 35 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 13 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına 3 nəfərin qeydiyyatı aparılıb.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Babək rayonunda keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Universiadanın seçim mərhələsi başa çatıb



Dünən Naxçıvan Tibb Kollecində keçirilən "Poliqon" Strateji İntellekt Oyunu üzrə IV Universiadanın Naxçıvan Muxtar Respublikası üzrə seçim mərhələsi başa çatıb. Yarışda ali və orta ixtisas təhsili müəssisələrinin hər birindən bir komanda olmaqla, 6 komanda iştirak edib. Oyunda I yerin sahibi olan komanda Bakı şəhərində keçiriləcək "Poliqon" Strateji İntellekt Oyunu üzrə IV Universiadanın Respublika birinciliyində muxtar respublikanı təmsil edəcək.

4 mərhələdən ibarət olan oyunda səsləndirilən 24 sualdan daha çoxuna cavab verən Naxçıvan Dövlət Universitetinin "Qarabağ" komandası 390 xalla I, Naxçıvan Dövlət Texniki Kollecinin "Zəfər" komandası 310 xalla II, Naxçıvan Müəllimlər İnstitutunun "Laçın" komandası isə 250 xalla III yerə layiq görülüblər. Qaliblərə Gənclər və İdman Nazirliyi tərəfindən kubok, diplom, fəxri fərman, oxunması zəruri olan kitablar, həmçinin Azərbaycan və dünya ədəbiyyatı nümunələri təqdim olunub. Gənclər və İdman Nazirliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 36 gənc iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonu Şıxmahmud kənd sakini Hacıyeva Sulduzə Tofiq qızının adına olan 317A inventar nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 876